Azərbaycan.- 2021.- 1 may. S. 5.

# "Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi buraxılıb

## "Qarabağa dönüş" İctimai Birliyinin yaradıldığı bəyan edilib

**"Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi ictimaiyyətə müraciət edib. AZƏRTAC müraciəti təqdim edir.**

"Əziz həmvətənlər!

2006-cı ildə ictimai birlik kimi qeydiyyata alınmış "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" fəaliyyəti dövründə torpaqlarımızın Ermənistan tərəfindən işğalı, 1 milyondan artıq azərbaycanlının öz ata-baba yurdlarından qovularaq etnik təmizləməyə, soyqırımına məruz qalması, mədəni və dini irsimizin sistemli şəkildə dağıdılmasının işıqlandırılmasında, Ermənistanın işğalçı siyasətinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində aktiv fəaliyyət aparıb. Bu illər ərzində icma üzvləri ölkə daxilində və xaricdə keçirilən çoxsaylı görüşlərdə, səfərlərdə, təşkil olunan konfranslarda həmişə Ermənistanın işğalı nəticəsində azərbaycanlı məcburi köçkünlərin pozulmuş fundamental insan hüquqlarının bərpa olunmasına diqqət çəkiblər.

Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması olaraq, biz heç vaxt öz dədə-baba torpaqlarımıza qayıdacağımıza olan inamımızı itirməmişdik. Biz mütəmadi olaraq sülh şəraitində birgəyaşayış çağırışları etsək də, təəssüf ki, bu çağırışlara Ermənistan və Qarabağın erməni icması tərəfindən müsbət cavab verilməyib.

Nəhayət, ötən il 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağımız işğaldan azad edildi, milyonlarla insanın 30 illik Vətən həsrətinə son qoyuldu. Ölkəmizin ərazi bütövlüyü və tarixi ədalət bərpa edildi. İşğalçı Ermənistan ordusu darmadağın edilərək torpaqlarımızdan çıxarıldı və bu Zəfər xalqımızın tarixinə qızıl hərflərlə həkk olundu. Azərbaycan Prezidenti həm döyüş meydanında, həm diplomatiya sahəsində, həm də informasiya müharibəsində ölkəmizin qalibiyyətini təmin etdi. Uzun illərdir gözlədiyimiz xəyallarımız gerçəkləşdi, Azərbaycan əzəli və tarixi hissəsi olan Qarabağa qovuşdu.

Artıq həm Azərbaycan, həm də onun tərkib hissəsi olan Qarabağ yeni tarixi mərhələyə qədəm qoyub. "Dağlıq Qarabağ" adlı inzibati ərazi vahidi və onun statusu anlayışı artıq yoxdur. Çoxmillətli və multikultural ölkəmizdə yaşayan bütün milli azlıqlar kimi, ermənilər də Azərbaycanda fərdi vətəndaşlar olaraq sərbəst şəkildə yaşayacaqlar.

Vətən müharibəsindən sonra yaranmış yeni reallıqda "Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması" və "Dağlıq Qarabağ bölgəsinin erməni icması" anlayışları öz aktuallığını və ictimai əhəmiyyətini itirib. Bütün bunları nəzərə alaraq, "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi aprelin 30-da iclas keçirərək təşkilatın buraxılmasına qərar verib.

Bundan sonrakı fəaliyyətimizi Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixi və əzəli torpaqlarımıza böyük qayıdışın uğurla başa çatdırılmasına, Qarabağımızın dirçəldilməsinə yönəldəcəyik.

Biz əminik ki, qısa zamanda Qarabağ ölkəmizin ən inkişaf etmiş yerlərindən birinə çevriləcək. Ermənistanın işğalı dövründə dağıdılmış bütün şəhər və kəndlərimiz, mədəni və tarixi abidələrimiz, məscidlərimiz bərpa olunacaq. Xalqımız üçün xüsusilə əziz olan Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri Müzəffər Ali Baş Komandanımızın da dediyi kimi, nəinki Azərbaycanın, dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək. Qarabağda yaşayan erməni əsilli Azərbaycan vətəndaşlarının ölkəmizin iqtisadi, sosial və humanitar həyatına reinteqrasiyasının və Azərbaycan Respublikasının qanunları çərçivəsində yaşayışının təmin edilməsi istiqamətində müvafiq işlər həyata keçiriləcək.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq, bu müqəddəs missiyanı dəstəkləmək üçün "Qarabağa dönüş" İctimai Birliyinin yaradıldığını bəyan edirik.